**Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin 2021-ci il ərzində gördüyü işlərə dair**

# H E S A B A T

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının müvafiq bəndlərinin icrası, sessiya və müşavirələrdə verilmiş tapşırıqların yerinə yetirilməsi, torpaqların elektron uçotunun aparılması və təyinatı üzrə istifadə edilməsinə dövlət nəzarətinin gücləndirilməsi, daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının qeydiyyatı zamanı operativliyin təmin edilməsi 2021-ci il ərzində diqqətdə saxlanılmış, işlərin icrası aşağıdakı istiqamətlərdə uğurla davam etdirilmişdir.

## Dövlət proqramları uğurla icra olunmuşdur

"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na müvafiq olaraq Ordubad rayonunun Çənnəb, Sabirkənd, Babək rayonunun Yuxarı Uzunoba, Culfa rayonunun Dizə kəndlərində muxtar respublikanın iqlim şəraitinə uyğun və yüksək məhsuldarlığa malik yerli meyvə-tərəvəz sortlarının bərpası və tətbiq olunması, əkin atlaslarına uyğun olaraq meyvə-tərəvəz əkinlərinin aparılması məqsədilə bələdiyyə sədrlərinin, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilmişdir.

Naxçıvan şəhərinin 43 nəqliyyat infrastrukturu obyektində 898 ünvan lövhəsi və 4367 giriş nömrə nişanı quraşdırılmış, 5 nəqliyyat infrastrukturu obyektində dəqiqləşdirmə işləri başa çatdırılmışdır. 2400 ünvan lövhəsi və giriş nömrə nişanının sənaye üsulu ilə hazırlanması üçün sifariş verilmişdir. Sədərək rayonunun Heydərabad, Kəngərli rayonunun Qıvraq qəsəbələrinin ünvan xəritələrinin layihələri hazırlanmış, baxılması üçün aidiyyəti üzrə təqdim edilmişdir.

Suvarılan əkinəyararlı torpaq sahələrinin genişləndirilməsi və su təminatının yaxşılaşdırılması məqsədilə Araz Su Anbarı üzərində qurulacaq yeni nasos stansiyasından qidalanması nəzərdə tutulan suvarma şəbəkəsinin əhatə etdiyi ərazilərdə topoqrafik planaalma işləri aparılmış, torpaq sahələrinin eksplikasiyası tərtib edilmiş və hazırlanmış xəritə materialları aidiyyəti üzrə göndərilmişdir. Kəngərli rayon inzibati ərazi vahidinin sərhədləri daxilində "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsin istifadəsinə verilmiş 69 hektar torpaq sahəsi xəritələşdirilmişdir.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq muxtar respublika üzrə

2004 hektar meyvə bağı, 355 hektar üzümlük, 888 hektar meşə zolağı plana alınaraq xəritələşdirilmişdir.

Ordubad rayonunun Çənnəb, Üstüpü və Aza, Babək rayonunun Şıxmahmud və Yuxarı Uzunoba, Culfa rayonun Dizə və Şurud bələdiyyələrinin ərazilərinə dair torpaqların qida maddələri ilə təmin olunma kartoqramları yenilənərək müvafiq bələdiyyələrə təqdim edilmişdir.

Əkin atlaslarına uyğun əkinlərin aparılması, torpaqların səmərəli istifadə edilməsi, münbitliyinin qorunması və artırılması barədə maarifləndirmə işləri aparılmışdır.

“2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı”na müvafiq olaraq Kəngərli rayonu inzibati ərazi vahidinin sərhədləri daxilində 3832 hektar, Şərur rayonu inzibati ərazi vahidinin sərhədləri daxilində 1815 hektar, Şahbuz rayonu inzibati ərazi vahidinin sərhədləri daxilində 60 hektar əkin dövriyyəsindən kənarda qalan əkinəyararlı torpaq sahəsi xəritələşdirilmiş, hazırlanmış xəritə materialları müvafiq tədbirlərin həyata keçirilməsi üçün aidiyyəti üzrə təqdim edilmişdir.

“2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı”na uyğun olaraq muxtar respublikanın bütün rayonlarında aid dövlət orqanları ilə birlikdə rayon icra hakimiyyəti başçılarının yerli nümayəndələrinin, bələdiyyə sədrlərinin, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin, o cümlədən ailə təsərrüfatlarının nümayəndələrinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilmişdir. Tədbir iştirakçılarına muxtar respublikanın torpaq fondundan səmərəli istifadə edilməsi, münbitliyin qorunması və artırılması yolları haqqında məlumat verilmişdir. Maarifləndirici broşürlər hazırlanaraq keçirilmiş tədbirlərdə iştirakçılara təqdim olunmuşdur.

Şərur rayonunun 22 bələdiyyəsi və dövlət ehtiyat fondu, Babək rayonunun 12 bələdiyyəsi və qış otlağı, Culfa rayonunun 7 bələdiyyəsi, Kəngərli rayonunun 6 bələdiyyəsi və qış otlağı, Ordubad rayonunun 5 bələdiyyəsi, Sədərək rayonunun 1 bələdiyyəsi, dövlət ehtiyat fondu və qış otlağı, həmçinin Naxçıvan şəhərinin 4 bələdiyyəsi üzrə eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaq sahələri xəritələşdirilmişdir. Ümumilikdə, muxtar respublikanın 57 bələdiyyəsi, dövlət ehtiyat fondu və qış otlaq sahələri üzrə 8583 ha belə torpaq sahəsi xəritələşdirilmişdir. Hazırlanmış xəritələr və torpaq sahələrinin laborator analiz nəticələri, mülkiyyət növləri və uqodiyalar üzrə

hesabat cədvəlləri müvafiq tədbirlərin həyata keçirilməsi üçün aidiyyəti üzrə göndərilmişdir.

Mövcud kanal, kollektor və drenajların əhatə etdiyi ərazilərin topoqrafik planlarının hazırlanması məqsədilə muxtar respublika üzrə 255,36 kilometr kanal, 296,27 kilometr kollektor-drenaj şəbəkəsi plana alınmışdır.

"Qars müqaviləsinin 100 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na müvafiq olaraq müqavilənin 5-ci maddəsinə və 3-cü əlavəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının təsbit olunmuş sərhədlərini əhatə edən ərazilərdə coğrafi obyektlər müəyyənləşdirilmişdir. Qafqaz Hərbi Dairəsinin 1903-cü ilə dair hərbi-topoqrafik xəritəsi, Azərbaycan Demokratik Respublikasının sərhədlərini əks etdirən 1918-1920-ci illərə dair xəritə, Qafqazın 1926-cı ilə dair 5 verstlik (1:210 000 miqyaslı) topoqrafik xəritəsi beynəlxalq koordinat sisteminə uyğunlaşdırılmış, obyektlərin koordinatları xəritə üzərinə köçürülmüşdür. Xidmətin məlumat bazasında olan 1:25 000 miqyaslı topoqrafik xəritələrə və aerokosmik çəkiliş materiallarına istinad olunaraq müqavilədə qeyd edilmiş sərhəd xətti 1:100000 miqyaslı topoqrafik xəritələr üzərində işlənmiş, müqayisəli təhlil aparılmışdır.

Xidmətdə AMEA Naxçıvan Bölməsinin tarixçi alimlərinin iştirakı ilə hazırlanmış materiallara baxış keçirilmiş, müqavilə ilə müəyyənləşdirilmiş sərhədlərin xəritə üzərində dəqiq əks etdirilməsi ilə bağlı müzakirələr aparılmışdır.

Naxçıvan Muxtar Respublikasının Qars müqaviləsi ilə təsbit olunmuş ərazisinə dair yekun xəritə materialları aidiyyəti üzrə təqdim olunmuşdur.

## Torpaqların elektron kadastr uçotu davam etdirilmişdir

Torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması məqsədilə sistemin fəaliyyətini təmin edəcək proqram təminatının hazırlanması başa çatdırılmış, dövlət və bələdiyyə mülkiyyətinə aid torpaq sahələri üzərində dəyişikliklər, kadastr əməliyyatları funksionallıqlarında təkmilləşdirmə işləri aparılmışdır.

Culfa və Ordubad bələdiyyələri üzrə bütün torpaq sahələri rəqəmsal kadastr xəritəsinə köçürülmüş, bununla da miqrasiya işləri yekunlaşmışdır. Muxtar respublikanın rayon və şəhərləri üzrə dövlət, bələdiyyə və xüsusi mülkiyyətə aid torpaq sahələrinin sistemə daxil edilməsi başa çatdırılmışdır.

"Torpaqların keyfiyyət göstəricilərinin monitorinqi" modulu yaradılaraq sistemin fəaliyyətini təmin edən proqram təminatında quraşdırılmışdır. Torpaqların

keyfiyyət göstəricilərinə dair müvafiq məlumatların rəqəmsal kadastr xəritəsində əks olunması təmin edilmişdir.

## Yeni xəritə və planlar tərtib edilmişdir

Şahbuz rayon inzibati ərazi vahidinə daxil olan 22 bələdiyyənin, Sədərək rayon inzibati ərazi vahidinə daxil olan (Kərki bələdiyyəsi istisna olmaqla) bələdiyyələrin və rayonunun Dəmirçi kənd inzibati ərazi dairəsinin, ərazi vahidinin xəritələri və müvafiq yerquruluşu sənədləri (yerquruluşu sənədlər qovluğu ilə birlikdə) hazırlanaraq aidiyyəti üzrə göndərilmişdir.

Şərur və Sədərək rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi ilə əlaqədar Şərur və Sədərək rayon inzibati ərazi vahidlərinin xəritələri və müvafiq yerquruluşu sənədləri hazırlanaraq aidiyyəti üzrə göndərilmişdir. Şərur və Sədərək rayon inzibati ərazi vahidlərinin təsdiq olunmuş yeni sərhədlərinin döngə nöqtələrinin koordinatları naturaya köçürülmüş, sərhəd xətti hər iki rayonun nümayəndələrinə göstərilmişdir.

Gilançaydan qidalanması nəzərdə tutulan suvarma xəttinin, Culfa rayon Yaycı kəndinin içməli su təchizatının yaxşılaşdırılması məqsədi ilə tikiləcək kaptaj, su xətti və su anbarı ərazisinin, Naxçıvan şəhəri və muxtar respublikanın rayonları üzrə suvarılan torpaq sahələrinin, Culfa və Babək rayonları ərazisində qapalı suvarma şəbəkəsinin çəkilməsi üçün layihələndirilən ərazilərin topoqrafik planları, çəmənləşmiş, şoranlaşmış və bataqlaşmış torpaq sahələrinin planları, Naxçıvan Muxtar Respublikasının sənaye və kənd təsərrüfatı müəssisələrinin xəritəsi, avtomobil yollarının xəritəsi, Naxçıvan Toxumçuluq Mərkəzinin istifadəsinə ayrılmış torpaq sahələrinin planı hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Ümumilikdə, il ərzində 38 sifarişçi təşkilatın müraciəti əsasında 300-ə yaxın müxtəlif məzmunlu xəritə, plan və sxemlər hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

## Torpaqlardan istifadəyə nəzarət gücləndirilmişdir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarında və keçirilən müşavirələrdə əkinəyararlı torpaqların təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarətin gücləndirilməsi, torpaq sahələrindən təyinatına uyğun olmayan digər məqsədlər üçün istifadənin qarşısının alınması barədə Xidmətə verilmiş tapşırıqlar diqqət mərkəzində saxlanılmışdır. Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur və Kəngərli rayonlarında monitorinqlər davam etdirilmişdir. İl ərzində Şərur rayonunun 28, Kəngərli

rayonunun 6 yaşayış məntəqəsində monitorinqlər aparılmış, torpaqdan qanunsuz istifadəyə dair aşkar edilmiş faktlar aradan qaldırılmışdır.

Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə muxtar respublikanın şəhər və rayonlarında daşınmaz əmlaka mülkiyyət hüququnun yaranmasının əsasları və bələdiyyə torpaqlarından təyinatı üzrə istifadə edilməsi ilə bağlı seminarlar keçirilmişdir.

## Ailə təsərrüfatlarına məxsus daşınmaz əmlak obyektləri inventarlaşdırılmışdır

Ordubad rayonunun Dəstə, Şərur rayonunun Məmmədsabir, Naxçıvan şəhərinin Tumbul, Culfa rayonunun Əbrəqunus və Ərəzin kəndlərində ailə təsərrüfatları ilə maarifləndirici görüşlər keçirilmiş, daşınmaz əmlak obyektlərinin pasportlaşdırılmasının əhəmiyyəti, hüquqların əmələ gəlməsinin, başqasına keçməsinin, məhdudlaşdırılmasının və xitam verilməsinin dövlət qeydiyyatı üçün lazım olan əsaslar, əkin atlaslarına uyğun əkinlərin aparılmasının əhəmiyyəti, torpaqlardan səmərəli istifadə sahəsində qanunvericiliyin tələbləri təsərrüfat sahiblərinin diqqətinə çatdırılmışdır.

İl ərzində 10 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, 84 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilmiş, təsərrüfat fəaliyyəti ilə əlaqədar 51 ailə təsərrüfatının icarəsinə verilmiş 8,15 ha torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

## Daşınmaz əmlakın qeydiyyatı yüksəlmişdir

2021-ci ildə muxtar respublika üzrə 2944 torpaq sahəsi, 83 qeyri-yaşayış binası, 110 qeyri-yaşayış sahəsi, 1574 mənzil, 2751 fərdi yaşayış evi, 11 bağ evi, 30 əmlak kompleksi kimi müəssisə olmaqla, cəmi 7503 daşınmaz əmlak obyekti üzərində hüquqlar daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmışdır. Əvvəlki illə müqayisədə dövlət qeydiyyatına alınan daşınmaz əmlak obyektlərinin sayı 20,6% artmışdır.

İl ərzində məhdudiyyət və yüklülüyə dair 6724, vətəndaşın adına daşınmaz əmlakın olub-olmamasına dair 1321 arayış verilmişdir. 801 əmlak üzərində məhdudiyyət və yüklülüyün qeydiyyatı, 353 əmlaka dair yüklülükdən azad olunma, 61 əmlak üzərində hüquqların məhdudlaşdırılması və məhdudlaşdırılmanın ləğvi əməliyyatı icra edilmişdir. 79 ipoteka kağızının qeydiyyatı, 96 ipoteka kağızının əlavə qeydiyyatı, 24 ipoteka kağızının qeydiyyatının ləğvi əməliyyatları və tutmanın əmlaka yönəldilməsinə dair 6 bildirişin qeydiyyatı aparılmışdır. Müvafiq sahə üzrə 531 sorğu-məktub, 12 elektron müraciət cavablandırılmışdır.

Mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması və daşınmaz əmlakla bağlı digər əməliyyatların aparılması üçün 18554 ərizə qəbul edilmişdir ki, bu da əvvəlki illə müqayisədə 27,2% çoxdur.

Kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranmış hüquqlara dair 14874 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilmişdir.

**Hazırlanan texniki sənədlərin sayı artmışdır**

Daxil olmuş müraciətlər əsasında 2223 daşınmaz əmlakın texniki pasportu, 3470 torpaq sahəsinin planı və ölçüsü olmaqla, 5693 texniki sənəd hazırlanmışdır. Əvvəlki illə müqayisədə hazırlanan texniki sənədlərin sayı 15,3% artmışdır.

2021-ci il ərzində muxtar respublikanın şəhər və rayonları üzrə hazırlanan texniki sənədlərin sayında artım müşahidə edilmişdir. Belə ki, 2020-ci illə müqayisədə hesabat ilində hazırlanan texniki sənədlərin sayı Naxçıvan şəhərində 30,4%, Şərur rayonunda 2,6%, Ordubad rayonunda 46,8%, Culfa rayonunda 36,2%, Şahbuz rayonunda 31,8%, Kəngərli rayonunda 38,4%, Sədərək rayonunda 2,7 dəfə artmışdır.

6953 texniki sənədin parametrləri və həmin sənədlər haqqında digər məlumatlar Milli Qeydiyyat Sisteminə daxil edilmişdir. 1158 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır.

İl ərzində 2114 əmlakın bazar dəyəri məlumat bazasına daxil edilmiş, 493 əmlak real bazar dəyərinə uyğun olaraq qiymətləndirilmişdir. İlkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 381 daşınmaz əmlak obyektinə ünvan verilmişdir.

**Səyyar və elektron xidmətlərin göstərilməsi diqqətdə saxlanılmışdır**

Hesabat dövründə Xidmətin fəaliyyət istiqamətləri üzrə təqdim etdiyi elektron xidmətlərə hüquqi və fiziki şəxslər tərəfindən 1260 müraciət daxil olmuş, daxil olan müraciətlər qəbul edilərək icra olunması üçün aidiyyəti üzrə yönəldilmişdir. 2020-ci illə müqayisədə elektron xidmətlərdən daxil olan müraciətlərin sayı 3 dəfəyə yaxın artmışdır.

Təsdiq olunmuş qrafik əsasında il ərzində muxtar respublikanın kənd yaşayış məntəqələrində vətəndaşlara səyyar xidmətlərin göstərilməsi davam etdirilmişdir. Şərur rayonunun 24 yaşayış məntəqəsində 67, Babək rayonunun 23 yaşayış məntəqəsində 43, Ordubad rayonunun 22 yaşayış məntəqəsində 56, Culfa rayonunun 12 yaşayış məntəqəsində 48, Şahbuz rayonunun 12 yaşayış məntəqəsində 45 müraciət olmaqla, muxtar respublika üzrə 93 yaşayış məntəqəsində 259 müraciətə baxılmışdır.

## Mütəxəssis hazırlığına diqqət artırılmışdır

Xidmətin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin “Torpaqşünaslıq və aqrokimya”, “Geodeziya və xəritəçəkmə mühəndisliyi”, “Yerquruluşu və daşınmaz əmlakın kadastrı” ixtisaslarında tələbələrlə işin gücləndirilməsi üçün iş planı təsdiq edilmişdir.

Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüş keçirilmiş, tələbələrə dərsliklər, dərs vəsaitləri, elektron dərsliklər, müxtəlif məzmunlu xəritə materialları, Xidmətin “Əmlak” informasiya bülleteninin və digər nəşrlərinin nüsxələri, Azərbaycan Respublikasının Milli Atlası hədiyyə edilmişdir. Tədris ili ərzində nəzəri və praktiki məşğələlərin keçirilməsi davam etdirilmişdir.

## Media ilə əlaqələr gücləndirilmişdir

Kütləvi informasiya vasitələrində görülən işlərin işıqlandırılması və maarifləndirmə aparılması diqqətdə saxlanılmışdır. İl ərzində “Şərq qapısı” qəzetində 24, Azərbaycan Dövlət İnformasiya Agentliyində 10, “Nuhçıxan” İnformasiya Agentliyində 37, rayon (şəhər) qəzetlərində 49 yazı dərc etdirilmiş, Naxçıvan Dövlət Radiosunda 3 veriliş, İctimai Televiziya vasitəsi ilə 1, Naxçıvan Televiziyası vasitəsi ilə 30 xəbər süjeti, 7 veriliş verilmiş, Xidmətin internet saytına 121 yazı yerləşdirilmişdir. “Əmlak” informasiya bülleteninin altıncı və yeddinci nömrələri nəşr edilmişdir.

## Maddi-texniki baza möhkəmləndirilmişdir

Göstərilən dövlət qayğısı sayəsində iki ədəd Lada 4x4 markalı avtomobil, 25 dəst yüksək konfiqurasiyalı kompüter, 16 müxtəlif ölçülü, çoxfunksiyalı printer, 1 plotter, 14 lazerli məsafəölçən, yerquruluşu işlərinin aparılmasında istifadə olunması üçün 2 planşet alınaraq Xidmət əməkdaşlarının istifadəsinə verilmişdir.